*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV


# ƏSGƏR

№ 14 (530)

14 iyul
2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## "BİZİM SİYASƏTİMİZ XALQ TƏRƏFİNDƏN DƏSTƏKLƏNİR VƏ BİZ ELƏ ETMƏLİYİK Kİ, ÖLKƏMİZİN İNKİŞAFINI DAYANIQLI VƏ DAİMİ EDƏK"

***İyulun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***

***AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.***





**Prezident İlham Əliyev qeyd edib ki, ilin altı ayında qarşıda duran bütün vəzifələr uğurla icra edilib, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bilib. Bu il Azərbaycan həm iqtisadi, həm beynəlxalq siyasət sahələrində uğurlar əldə etmişdir:** "Aprel ayında keçirilmiş prezident seçkiləri bir daha onu göstərdi ki, Azərbaycan xalqı bizim siyasətimizə çox böyük dəstək verir. Seçkilərdə qazandığım inamlı qələbə onu göstərir ki, son 15 il ərzində görülmüş işlər Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu böyük dəstək bizə imkan verəcək ki, bundan sonra da ölkəmizi inkişaf yolu ilə inamla irəliyə aparaq".

Bu ilin altı ayında xarici siyasət sahəsində böyük işlərin görüldüyünü deyən dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan beynəlxalq əlaqələrini möhkəmləndirə bilmişdir: "Qonşu dövlətlərlə bizim ənənəvi dostluq, strateji tərəfdaşlıq əlaqələri vardır. Altı ayda qonşu ölkələrin dövlət və hökumət başçıları ilə mənim bir neçə görüşüm olmuşdur. İlin ikinci yarısında da görüşlər nəzərdə tutulur".

Azərbaycanın ordu quruculuğu istiqamətində inamla irəlilədiyini deyən Prezident İlham Əliyev vurğulayıb ki, hərbi paradda potensialımızın bir hissəsini göstərdik - həm say baxımından, həm silahların növü baxımından: "Bizim böyük maliyyə ehtiyatlarımız imkan verir ki, istənilən hərbi texnikanı alaq və hazır vəziyyətə gətirək. Bu il büdcəmizə edilən dəyişikliklər, dürüstləşmə, eyni zamanda, ordu xərclərinin artırılmasına istiqamətləndirilib və gələn il də bizim hərbi xərclərimiz çox yüksək səviyyədə olacaqdır".

Dövlətimizin başçısı bildirib ki, bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır: "Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik. Deyə bilərəm ki, biz böhrandan az itkilərlə çıxa bilmişik.

Bu ilin göstəriciləri isə onu deyir ki, əvvəlki illərdə apardığımız islahatlar və bu il aparılan islahatlar gözəl nəticələr verir. Mən bəzi rəqəmləri Azərbaycan ictimaiyyətinə çatdırmaq istərdim. Beləliklə, altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz artmışdır. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorumuz 2 faiz artmışdır. Sənaye istehsalı 1 faiz artsa da, bu da məqbul rəqəmdir. Qeyri-neft sənayemiz 8,8 faiz artmışdır. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir".

**Prezident İlham Əliyev yekun nitqində qeyd edib ki, ötən altı ayın göstəriciləri deməyə əsas verir ki, biz 2018-ci ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələrə uğurla nail olacağıq:** "Bundan sonrakı illərdə Azərbaycan iqtisadiyyatı dinamik şəkildə inkişaf etməlidir. Bunu təmin etmək üçün, əlbəttə ki, islahatlar daha da dərinləşməlidir".

Son illər ərzində aparılan islahatların öz bəhrəsini verdiyini söyləyən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Azərbaycan iqtisadiyyatı uzunmüddətli, gələcəkdə dayanıqlı iqtisadiyyat kimi özünü göstərməlidir, neftdən, qazdan asılılıq daha da aşağı düşməlidir və qeyri-neft sektorunun inkişafı sürətlə davam etdirilməlidir: "İqtisadi və maliyyə sektorlarında maksimum şəffaflıq təmin edilməlidir. Bu şəffaflıq imkan verəcək ki, Azərbaycan iqtisadiyyatı daha inamla inkişaf etsin, qeyri-neft sektorumuza xarici sərmayə daha böyük həcmlə qoyulsun. Çünki bu sektora xarici sərmayənin lazımi səviyyədə olmamasının əsas səbəbi qeyri-şəffaf vəziyyətdir. Eyni zamanda, qanunvericilikdə də əlavə tədbirlər görülməlidir, baxmayaraq ki, bizim qanunvericiliyimiz xarici sərmayənin cəlb edilməsi üçün çox əlverişlidir. Əgər belə olmasaydı, ölkə iqtisadiyyatına 230 milyard dollardan çox sərmayə qoyulmazdı. Ancaq müasir dövrün tələbləri diktə edir ki, islahatlar daha da dərinləşsin və şəffaflıq tam təmin edilsin".

Respublika Prezidenti bildirib ki, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha ciddi aparılmalıdır: "Aprel ayında formalaşmış yeni hökumət qarşısında bu vəzifə çox kəskin qoyulmuşdur. Bu xoşagəlməz hallara son qoyulmalıdır. Son illər ərzində böyük işlər görülüb və beynəlxalq təşkilatlar da bunu qeyd edir. Bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan daim irəliyə gedir. Ancaq irəliləyiş olsa da, bu, bizi qane edə bilməz. Azərbaycanda bu böyük sosial bəlanın kökü kəsilməlidir. Bunu etmək üçün də imkanlar var. Həm güclü siyasi iradə, həm də indi bizim institusional mexanizmlərimiz var. Ən önəmlisi, kadr islahatı aparılır və aparılacaq. Hansı dövlət məmurları bu meyarlara uyğun gəlməyəcəklərsə, onlar işdən çıxarılacaqlar və bunu bütün dövlət məmurları bilsinlər".

Azərbaycan Prezidenti çıxışının sonunda bir daha Davos Dünya İqtisadi Forumunun hesablamalarını diqqətə çatdırıb: "Son hesablamalara görə, Azərbaycan dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci yerdədir. Yol infrastrukturunun inkişafına görə 36-cı yerdədir. İnkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü yerdədir. Ümumi infrastrukturun inkişafına görə dünya miqyasında 26-cı yerdədir. Xalqın iqtidara dəstəyinə görə dünya miqyasında 20-ci yerdədir. Bax, bu rəqəmlər əyani şəkildə göstərir ki, Azərbaycan hansı böyük uğurlara imza atıb. Bu, əyani şəkildə göstərir ki, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və biz elə etməliyik ki, ölkəmizin inkişafını dayanıqlı və daimi edək".

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Builki peşə bayramı günü - 2 iyul Azərbaycan Polisi həm də yaranmasının 100 illik yubileyini qeyd edir. Bu münasibətlə keçirilən təntənəli tədbirdən öncə respublikanın Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubovun rəhbərliyi ilə DİN-in təmsilçiləri Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, abidə kompleksi önünə tər çiçək dəstələri düzüblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad olunub.***






Daha sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər Xiyabanı ziyarət olunub.

İyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycan Polisinin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.

Əvvəlcə mərasim iştirakçıları xalqımızın Milli Lideri Heydər Əliyevin, suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda canlarını fəda etmiş, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevin əlamətdar yubiley münasibətilə polis orqanlarının şəxsi heyətinə təbrikini çatdırıb.

Sonra nazir, general-polkovnik Ramil Usubov ötən 100 ildə Azərbaycan Polisinin keçdiyi şərəfli yol, xüsusən Ulu Öndər Heydər Əliyevin respublikamıza hər iki rəhbərliyi dövründə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, peşəkar kadr özəyinin yaradılması, həmçinin, möhtərəm Prezidentimizin başçılığı ilə hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar, struktur dəyişiklikləri, maddi-texniki bazanın möhkəmləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması, şəxsi heyətə ali diqqət və qayğısı barədə geniş məruzə ilə çıxış edib.

Nazir asayiş keşikçilərinin öz şanlı yubileylərini böyük qürur hissi və xidmətdə qazandığı uğurlarla qeyd etdiklərini, bu münasibətlə ünvanladığı təbrikdə möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan Polisinin 100 illik əzmkar missiyasına dolğun, keçdiyi şərəfli yola yüksək qiymət verməsinin bütün şəxsi heyətin hədsiz sevincinə, ruh yüksəkliyinə səbəb olduğunu, bu günlərdə ölkə başçımızın imzaladığı sərəncamlarla 49 əməkdaşımızın dövlət mükafatlarına, 2 rəhbər vəzifəli şəxsin isə ali xüsusi rütbəyə layiq görüldüyünü vurğulayıb.

Polisin keçdiyi yolun dövlətçiliyimizin tarixi ilə sıx bağlılığını nəzərə alan, tarixi ədalətin bərpasını zəruri sayan və varislik prinsipini rəhbər tutan xalqımızın Milli Lideri Heydər Əliyevin 20 il öncə, 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-nin "Azərbaycan Polisi Günü" elan edildiyini deyən daxili işlər naziri bu müdrik qərarın polisin ən yaxşı ənənələrinə, gecəli-gündüzlü gərgin əməyinə, torpaqlarımızın müdafiəsində və xidməti vəzifə borcunu yerinə yetirərkən qəhrəmancasına həlak olanların əziz xatirəsinə ehtiramın əyani təcəssümü olduğunu diqqətə çatdırıb.

Cümhuriyyətin süqutundan sonra Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu illər ərzində daxili işlər orqanlarının inkişaf etdiyi, ictimai asayişin qorunmasında yüksək nəticələr və zəngin təcrübə qazandığı, Azərbaycan milisinin İkinci Dünya müharibəsində böyük qəhrəmanlıqlar göstərdiyi, Ulu Öndərin rəhbərliyi altında respublikamızın iqtisadi, sosial və digər sahələrdə böyük uğurlar qazandığı 1970-1980-ci illərin Daxili İşlər Nazirliyinin tarixində mühüm mərhələ olduğu qeyd edilib.

*(davamı səhifə 2-də)*

## DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

***İyul ayının 10-da Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın "2018-ci ilin birinci yarımilliyində xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr haqqında" iclası keçirilib. İclasda Daxili Qoşunların Baş İdarəsinin idarə, şöbə, xidmət rəisləri, hərbi hissələrin komandirləri və müavinləri iştirak ediblər.***

General-leytenant Şahin Məmmədov iclasın gündəliyini elan etdikdən sonra 2018-ci ilin birinci yarımilində xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr haqqında Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış edib.

Bildirilib ki, birinci yarımilin xidməti-döyüş fəaliyyətinə yekun vurularkən ilk növbədə Daxili Qoşunların Ali Hərbi Məktəbində iyun ayının 23-də keçirilən kursantların ilk buraxılış mərasimi qeyd edilməlidir. Digər əlamətdar hadisə kimi Silahlı Qüvvələrin yaranmasının 100 illiyi münasibətilə paytaxtın "Azadlıq" meydanında keçirilən möhtəşəm hərbi paradda Daxili Qoşunların iştirakı vurğulanıb. Həmçinin, Daxili Qoşunların yaradılmasının 26-cı ildönümü ilə əlaqədar keçirilmiş təntənəli mərasim də əlamətdar hadisə kimi diqqətə çatdırılıb.




Müşavirədə giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov qeyd edib ki, Daxili İşlər Nazirliyinin tərkib hissəsi olan Daxili Qoşunlar 2018-ci ilin birinci yarısında qarşıya qoyulmuş tapşırıqların icrasını yüksək səviyyədə yerinə yetirib, ölkəmizdə keçirilən bütün beynəlxalq əhəmiyyətli və respublika səviyyəli tədbirlərdə ictimai təhlükəsizliyin təmini, ictimai qaydanın qorunması uğurla həyata

*(davamı səhifə 2-də)*

2_Layout 1 13.07.2018 11:19 Page 1



# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

*(əvvəli səhifə 1-də)*

Bildirilib ki, məhz həmin dövrdə Milli Lider böyük uzaqgörənliklə daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar kadrların irəli çəkilməsi ilə bağlı ciddi qərarlar qəbul edib. Şəxsi heyətin milli dövlətçilik ideyası ruhunda formalaşmasının nəticəsi idi ki, 1988-ci ildən başlayaraq, Ermənistanın hərbi təcavüzünə qarşı Vətənin müdafiəsinə ilk olaraq qalxan və uzun müddət rəşadətlə döyüşən yeganə silahlı qüvvə məhz polis, sonralar isə Daxili Qoşun hissələri idi. Həmin döyüşlərdə DİN-in 1695 əməkdaşı və hərbi qulluqçusu şəhid olub, 1710-u yaralanıb. Müstəqillik illərində xidməti vəzifələri yerinə yetirərkən isə 99 əməkdaş həyatını itirib, 2640 nəfər xəsarət alıb. Göstərdikləri fədakarlığa görə daxili işlər orqanlarının 67 əməkdaşına Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verilib, 1143 nəfər müxtəlif orden və medallarla təltif olunub.

Daha sonra cənab Ramil Usubov müstəqilliyin ilk illərində respublikamızda yaşanan ictimai-siyasi böhran, hərc-mərclik, özbaşınalıq, insan hüquqlarının kütləvi şəkildə pozulması, torpaqlarımızın işğalı və separatizmin Azərbaycanın bir dövlət kimi mövcudluğunu təhlükə altına alması, onu dağılmaq həddinə gətirməsi, çoxsaylı qanunsuz silahlı dəstələrin əhalidə vahimə və qorxu yaratması, cinayətlərin sayının kəskin artması, kriminogen durumun nəzarətdən çıxması, belə ağır və mürəkkəb vəziyyətdə xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında yenidən siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin qurtuluş missiyasını həyata keçirərək qısa müddətdə respublikada möhkəm və dönməz sabitlik yaratmağa nail olması, dövlət çevrilişi və vətəndaş müharibəsinin qarşısının alınması, anarxiyaya son qoyulması, qanunsuz silahlı dəstələrin tərksilah edilməsi, kriminogen durumun nəzarətə götürülməsi barədə ətraflı danışıb.

Ən yeni tariximizə nəzər salan nazir 2003-cü ilin oktyabrında cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkəmizin öz inkişafının yeni mərhələsinə qədəm qoyduğunu, lakin həmin illərin də asan olmadığını, yenidən dövlətimizi xaos və anarxiyaya sürükləməyə cəhdlərin göstərildiyini, bu antimilli əməllərin qarşısının Ali Baş



Komandanımızın qətiyyəti, möhkəm iradəsi, hüquq-mühafizə orqanlarının yaranmış vəziyyətə operativ müdaxiləsinin təşkili sayəsində alındığını, məhz ictimai asayişin etibarlı qorunmasının nəticəsi olaraq onun rəhbərliyi ilə xalqımız və dövlətimiz üçün çox mühüm olan qlobal layihələrin reallaşdığını məmnunluqla xatırladıb.

Cinayətkarlığa qarşı mübarizədə digər hüquq-mühafizə və xüsusi xidmət orqanları ilə birgə qazanılan uğurların mötəbər beynəlxalq təşkilatlar tərəfindən də dəyərləndirildiyi nəzərə çatdırılıb. Məlumat verilib ki, Dünya İqtisadi Forumunun hesabatına əsasən, "Polis xidmətlərinin etibarlılığı" indikatoru üzrə Azərbaycan Respublikası 2017-ci ildə 21 pillə irəliləyərək 137 ölkə arasında 54-cü, "Təhlükəsizlik" indikatoru üzrə 40-cı, "Mütəşəkkil cinayətkarlıq" indikatoru üzrə 43-cü mövqedə qərarlaşıb.

Bildirilib ki, müasir dövrün çağırış və təhdidləri nəzərə alınmaqla şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılmasına da böyük önəm verilir. Belə ki, son 15 ildə beynəlxalq qurumların təşkil etdiyi forum, müşavirə və treninqlərdə 6 mindən çox əməkdaş iştirak edib, təcrübə mübadiləsi aparılıb. Hər il onlarla gənc müxtəlif ölkələrin polis akademiyalarına, hüquq universitetlərinə təhsil almağa göndərilir. Müstəqilliyin ilk illərində hüquqşünas ixtisası tələb olunan zabit heyəti vəzifələrinin yalnız 16 faizini müvafiq təhsilli əməkdaşlar təşkil edirdisə, hazırda bu göstərici 100 faizə çatıb, kiçik rəis heyəti vəzifələrində xidmət edən əməkdaşların isə təxminən 20 faizi ali təhsillidir.

Nazir R.Usubov xidməti vəzifələrin icrasında yaxından köməkliklərinə görə vətəndaşlara, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, Milli Məclisin, hüquq-mühafizə, xüsusi xidmət və digər dövlət orqanlarının, kütləvi informasiya vasitələrinin, ictimai təşkilatların rəhbərlərinə və nümayəndələrinə təşəkkürünü bildirib, həmçinin, gənc əməkdaşların formalaşmasında və təcrübə əldə etməsində böyük işlər görən veteranlara təşəkkür edərək ən xoş arzularını çatdırıb.

Daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək dəyərləndirdiyinə görə bütün şəxsi heyət adından ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə dərin minnətdarlığını bildirən nazir Ramil Usubov əmin edib ki, Azərbaycan Polisi inkişafın və rifahın rəhni olan sabitliyin qorunub saxlanılması, qanunçuluğun, fundamental insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün bundan sonra da qüvvə və bacarığını əsirgəməyəcək, andına sadiq qalaraq Azərbaycan Respublikasına ləyaqətlə xidmət edəcək, möhtərəm Prezidentin inam və etimadını hər zaman layiqincə doğrultmağa çalışacaqdır.

Təntənəli mərasim Nazirliyin ayrı-ayrı struktur qurumlarının şəxsi heyətinin, həmçinin, xidməti nəqliyyat vasitələrinin və süvarilərin tribuna önündən keçidi ilə başa çatıb.

# DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

*(əvvəli səhifə 1-də)*

Qeyd olunub ki, cari ilin birinci yarımili ərzində müəyyən edilmiş və qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının vaxtında, keyfiyyətlə və tam həcmdə yerinə yetirilməsi, nümunəvi nizam-intizam, struktur bölmələrin hərtərəfli təmin edilməsi prioritet məsələlərdən liyyat şəraitlərində silah, xüsusi vasitələr və döyüş texnikasından effektiv istifadə edilməsinə, fiziki hazırlığın yüksəldilməsinə, etibarlı və fasiləsiz rabitə əlaqəsinin yaradılmasına, qoşun xidmətinin təşkilinə və zəruri təminatına xüsusi önəm verilib.

Sonra Baş İdarənin mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov



olub. Hissə və bölmələrin yüksək döyüş hazırlığının təmin edilməsi, qüvvə və vasitələrin effektiv istifadəsi, çevik, gizli və fasiləsiz idarəolunma, qarşılıqlı fəaliyyətin təşkili, döyüş xidmətinin aparılmasına, şəxsi heyətin peşə və ixtisas hazırlığının artırılması əsas vəzifələr olaraq Daxili Qoşunların Qərargahı tərəfindən daim diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə komandir heyətinə mürəkkəb şəraitdə düzgün, çevik qərar qəbuletmə bacarıqlarının öyrədilməsinə, şəxsi heyətin nəzəri biliklərinin və praktiki vərdişlərinin artırılmasına, müxtəlif əmə-

çıxış edərək, birinci yarımildə Daxili Qoşunların şəxsi heyəti ilə tərbiyə işinin təşkilinin və hərbi intizamın vəziyyətinin qənaətbəxş olduğunu vurğulayıb.

Bildirib ki, ötən müddət ərzində şəxsi heyətlə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınmasına, komandir və rəislərin şəxsi nümunəliyinin təmin olunmasına, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına, hərbi qulluqçuların ictimai-siyasi hazırlıq üzrə biliklərinin artırılmasına yönəldilib.

Daha sonra bir neçə hərbi hissələrin komandir və müavinlərinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib. Çıxışlar zamanı qeyd olunub ki, ümumilikdə, hərbi hissələr qarşıya qoyulmuş tapşırıqlardan irəli gələn vəzifələri tam həcmdə yerinə yetirib.

Müşavirəyə yekun vuran general-leytenant Ş.Məmmədov ümumilikdə, 2018-ci ilin birinci yarımilində xidməti-döyüş fəaliyyətini qənaətbəxş hesab edərək, növbəti yarımildə də döyüş hazırlığının yüksək səviyyədə saxlamaqla döyüş təliminin keyfiyyətinin artırılması, hərbi intizamın daha da möhkəmləndirilməsi və şəxsi heyətin hərtərəfli təminatı istiqamətində əməli tədbirlərin həyata keçiriləcəyini vurğulayıb. Xüsusi olaraq qeyd edilib ki, Daxili Qoşunların şəxsi heyəti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun əmr və göstərişlərini hər an yerinə yetirməyə hazırdır.

Sonda Daxili Qoşunlar Komandanı növbəti yarımildə qarşıda duran vəzifələrlə əlaqədar aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verib. O, əldə olunmuş nailiyyətləri qoruyub saxlamaq və davam etdirməklə yanaşı, birinci yarımil ərzində mövcud olmuş nöqsanların öyrənilməsi, yaranma səbəblərinin dərindən araşdırılması, aradan qaldırılması və bir daha təkrarlanmaması üçün qısa müddətdə lazımi tədbirlərin görülməsini tələb edib.

**Mətbuat xidməti**

# HƏRBİ QULLUQÇULAR FUNKSİONAL VƏZİFƏLƏRİNİN İCRASI ZAMANI ƏZMKARLIQ NÜMAYİŞ ETDİRİRLƏR

***Bu gün ölkədəki ictimai qaydanın qorunub saxlanılmasında və ictimai təhlükəsizliyin təmin edilməsində Daxili Qoşunların özünəməxsus rolu var. Qoşunların qarşısına qoyulmuş tapşırıqların istər paytaxt Bakıda, istərsə də regionlarda uğurla həyata keçirilməsi bunu deməyə əsas verir.***



Gündəlik xidməti-döyüş fəaliyyətini müvəffəqiyyətlə icra edən bölmələrdən biri də 25033 saylı hərbi hissənin Ayrı yerləşən patrul taborudur. Bu tabor yüksək döyüş hazırlığı, o cümlədən nümunəvi hərbi intizam nümayiş etdirərək, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Bütün bunlar taborun şəxsi heyətinin həm fiziki, həm atəş hazırlığından, eyni zamanda rəhbər sənədlərin tələblərinin mükəmməl öyrənilməsindən xəbər verir.

Ayrı yerləşən patrul taborunun komandiri polkovnik-leytenant Seymur Şahmuradov əldə olunan nailiyyətin ilk növbədə hərbi qulluqçuların öz vəzifə borclarına məsuliyyətlə yanaşmasından irəli gəldiyini bildirdi. Qeyd etdi ki, hər kəs üzərinə düşən məsuliyyəti doğru-düzgün anlayanda orada yüksək nizam-intizam formalaşır ki, bu da hissənin döyüş hazırlığına birbaşa təsir edir. O, bu baxımdan keçirilən nəzəri və praktiki məşğələlərin əhəmiyyətini də vurğuladı. Polkovnik-leytenant S.Şahmuradov mənəvi-psixoloji durumu yüksək olan hərbi qulluqçuların məşğələlərdə daha fəal iştirak etdiyini, eyni zamanda bilik və bacarıqlarının artırılması istiqamətində səylə çalışdığını diqqətə çatdırdı.

Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması istiqamətində görülən işlər barədə hərbi hissə komandirinin 1-ci müavini-qərargah rəisi kapitan Elşən Hüseynov məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların fiziki məşqləri daima diqqət mərkəzində saxlanılır. Bütün növ idman tədbirləri vaxtında, eyni zamanda müvafiq təlimata uyğun keçirilir, bu da müsbət nəticələrin əldə olunmasına imkan verir.

Qərargah rəisi bununla yanaşı, şəxsi heyətin atəş hazırlığının da mühüm əhəmiyyət kəsb etdiyini söylədi. O, şəxsi heyətlə keçirilən praktiki təlimləri önə çəkərək qeyd etdi ki, məşğələlər zamanı silahların taktiki-texniki xüsusiyyətlərinin mükəmməl mənimsənilməsi, onların düzgün istifadəsi, təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də normativlərə uyğun silahların sökülüb-yığılması peşə vərdişlərinin formalaşmasında mühüm rola malikdir. İl ərzində sadalanan keyfiyyətlərin artırılmasına nail olunduğunu deyən kapitan E.Hüseynov, görülən işlərdə xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri





kapitan Elnur Səmədovun, patrul bölüyünün komandiri kapitan Pərviz Kərimovun, təminat bölüyünün komandiri baş leytenant Araz Hüseynovun və komendant taqımının komandiri vəzifələrini icra edən baş çavuş Xalid Əliyevin xidmətini müsbət qiymətləndirdi. Onun sözlərinə görə, bölmə komandirləri məşğələlərin tam və keyfiyyətlə həyata keçirilməsi məqsədilə tədris dövrünü daima ciddi nəzarətdə saxlayırlar.

Hərbi hissə komandanlığı tərəfindən



diqqət mərkəzində saxlanılan istiqamətlərdən biri də hər bir bölmənin aidiyyəti üzrə funksional vəzifələrinin yerinə yetirilməsi, o cümlədən gündəlik xidməti-döyüş fəaliyyətidir. Yəni, komendant taqımının hərbi hissənin müdafiə və mühafizəsini qüsursuz təşkil etməsi, nəzarət-buraxılış məntəqəsinin hissəyə şəxsi heyətin, avtomobillərin giriş-çıxışını tənzimləməsi, tabor növbətçisi və köməkçisinin gün nizamında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsinə ciddi nəzarət etməsi bunun əyani sübutudur. Rabitə növbətçisi tərəfindən hərbi hissənin fasiləsiz rabitə əlaqəsi ilə təmin olunması, yeməkxana növbətçisinin nəzarəti altında növbətçi aşpazın yeməkləri vaxtında, keyfiyyətlə hazırlaması, park növbətçisinin avtomobillərin parka




giriş-çıxışını müntəzəm olaraq qeydiyyata alması, növbətçi feldşerin hərbi qulluqçuların səhhəti ilə bağlı hər hansı bir müraciət olarsa, onlara ilkin tibbi yardım göstərməsi, eləcə də gün növbətçiləri və qərargah naryadlarının daxili səliqə-sahmanı qoruyub saxlaması da sadalananlara aiddir.

Ümumilikdə deyə bilərik ki, şəxsi heyət xidmət zamanı hərbçiyə xas olan bütün xüsusiyyətləri (peşəkarlıq, çeviklik, ayıqsayıqlıq, nizam-intizamlılıq və s.) özündə cəmləşdirir, funksional vəzifələrinin icrası zamanı əzmkarlıq nümayiş etdirirlər.

Belə hərbi qulluqçulardan gizir Rüstəm Rüstəmovun, baş çavuş Neymət Abdullayevin, baş əsgər Taleh Əliyarovun, əsgərlər Möylə İbrahimovun, Bəhlul Həsənovun, Əvəz Əliyevin, Vüqar Məmişovun, Rəsul Qocayevin, Rəvan Hətəmlinin və Fərid Əbdülrəhimovun adlarını çəkə bilərik.

**kapitan T.Əlizadə**

# YENİYETMƏ VƏ GƏNCLƏR SƏBAİL RAYON İCRA HAKİMİYYƏTİ İLƏ DAXİLİ QOŞUNLARIN BİRGƏ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏŞKİL OLUNMUŞ YAY DÜŞƏRGƏSİNƏ YOLA SALINIB

Yeniyetmə və gənclərin yay istirahətinin səmərəli təşkili məqsədilə Səbail Rayon İcra Hakimiyyəti rəhbərliyi və Daxili Qoşunlar Komandanlığının birgə təşəbbüsü əsasında hər il olduğu kimi, bu il də növbəti tədbir həyata keçirilib.




İyul ayının 3-də paytaxtımızın mərkəzindəki "Sahil bağı"nda artıq 13-cü dəfə təşkil olunmuş hərbi-vətənpərvərlik təmayüllü "Şahinlər" yay istirahət düşərgəsinə yeniyetmə və gənclərin yolasalınma mərasimi keçirilib.

Əvvəlcə Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin müşayiətilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.





Mərasimdə çıxış edən Səbail Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Xalidə Bayramova Respublika Prezidenti cənab İlham Əliyevin yeniyetmə və gənclərimizin sağlam böyüməsi, gənc nəslin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması istiqamətində gördüyü işlərdən söz açıb. O, ölkənin birinci vitse-prezidenti Mehriban Əliyevanın uşaq və yeniyetmələrə qayğısından, bu istiqamətdə həyata keçirdiyi layihələrdən, o cümlədən Səbail rayonunda görülən işlərdən danışıb, uşaqlara şən və yaddaqalan istirahət arzulayıb.

Bildirilib ki, istirahət üçün hər cür şəraitin yaradıldığı düşərgənin fəaliyyəti Səbail Rayon İcra Hakimiyyətinin və Daxili Qoşunların, eyni zamanda layihədə iştirak edən digər təşkilatçıların diqqət mərkəzində olacaq.

Daxili Qoşunların Baş İdarəsinin şöbə rəisi, polkovnik Mətləb Qənbərov uşaqların mənalı və yaddaqalan istirahəti üçün görülən işlərdən danışaraq qeyd edib ki, Daxili Qoşunların "N" saylı hərbi hissəsində yaradılan düşərgənin hərbi-vətənpərvərlik təmayüllü olmasını nəzərə alaraq bir sıra təşkilati işlər həyata keçirilib.

Qeyd olunub ki, istirahətə göndərilən uşaqlar və onların valideynləri, düşərgədə çalışacaq dəstə rəhbərləri ilə görüşlər keçirilib, burada istirahətin təşkili, daxili qaydaları, keçiriləcək tədbirlər barədə ətraflı məlumatlar verilib. Uşaqlar üçün xüsusi geyim və forma, lazımi idman ləvazimatları alınıb.

Sonra Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin marş sədaları altında yeniyetmələr valideynləri ilə görüşüb avtobuslara əyləşərək Quba rayonuna yola düşüblər. Yola düşməzdən əvvəl "Şahinlər" Fəxri Xiyabanda Milli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər.

Qeyd edək ki, Daxili Qoşunların Quba rayonunda yerləşən "N" saylı hərbi hissəsində yaradılmış düşərgədə rayonun Qarabağ müharibəsi əlillərinin, veteranlarının, aztəminatlı və imkansız ailələrin uşaqları, təhsildə, idmanda fərqlənən şagirdlər, həmçinin, "SOS-Azərbaycan" uşaq kəndində tərbiyə alan, Ombudsman Aparatının, UAFA təşkilatının təqdim etdiyi uşaqlar da daxil olmaqla, ümumilikdə 100 nəfər məktəbli istirahət edəcək. Burada onlar gündə 4 dəfə yüksək kalorili yeməklə, təzə meyvə, tərəvəz və süd məhsulları ilə təmin olunacaq. İstirahət günlərində şagirdlərin Qubanın görməli yerlərinə, rayonun tarixi guşələrinə gəzintiləri təşkil ediləcək, eyni zamanda Daxili Qoşunların hərbi hissəsi ilə yaxından tanış olacaqlar.

Düşərgədə uşaqların təlim-tərbiyə işləri ilə rayonun orta məktəblərində çalışan idman və ibtidai hərbi hazırlıq müəllimləri ilə yanaşı, Daxili Qoşunların hərbi qulluqçuları da məşğul olacaqlar.

**Mətbuat xidməti**

3_Layout 1 13.07.2018 11:33 Page 1



# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA MALİK BATAREYA VƏZİFƏLƏRİN İCRASINI MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRMƏK QABİLİYYƏTİNDƏDİR

***Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan, 16073 saylı hərbi hissənin Minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir.***



Minaatan batareyanın vəzifələri döyüş əməliyyatları zamanı motoatıcı bölmələrini düşmən üzərinə asanlıqla irəliləməsi üçün atəş dəstəyi ilə təmin etməkdir. Düşmənin komanda düşərgə məntəqəsini, düzünə artilleriya ilə vurulması mümkün olmayan üstüörtülü sığınacaqlarda yerləşən canlı qüvvəsini məhv etmək də batareyanın üzərinə düşən tapşırıqlardandır. Eyni zamanda düşmənin önünü, gerisini və dərinliklərini iriçaplı silahlarla atəşə tutan batareya hücuma keçən bölmələrin sərbəst irəliləməsinə əlverişli şərait yaradır.

Minaatan batareyanın komandiri baş leytenant Fərhad İbadov sadalanan vəzifələrin yerinə yetirilməsi baxımından şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksək olmasının vacibliyini söylədi. O, hərbi qulluqçuların peşə vərdişlərinin artırılması istiqamətində görülən işlərdən danışdı. Bildirdi ki, şəxsi heyət mütəmadi olaraq praktiki məşğələlərə cəlb olunur. Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində "batareya hücumda" və "batareya müdafiədə" mövzularında təlimlər keçirilir. Həmçinin, minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən təhlükəsizlik qaydaları öyrədilir.

Batareya komandiri şəxsi heyətin təlim və məşğələlərə məsuliyyətlə yanaşdığını, eləcə də nizam-intizam qaydalarına ciddi riayət etdiyini xüsusi olaraq vurğuladı. Əlavə etdi ki, komandiri olduğu batareya yüksək döyüş hazırlığına malikdir və istənilən zaman vəzifələrinin icrasını müvəffəqiyyətlə yerinə yetirmək qabiliyyətindədir.

O, funksional vəzifələrinin öhdəsindən layiqincə gələn batareya komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Zamiq İsgəndərovun, batareyanın baş zabiti baş leytenant Sadiq Nəbiyevin, manqa komandirləri çavuş Rəşad Mikayılovun, baş əsgər Şəhriyar Mikayılovun, tuşlayıcı əsgər Orxan Mehdiyevin və heyət nəfəri əsgər Elxan Qəhrəmanlının adlarını çəkməyi də unutmadı.

**kapitan T.Əlizadə**

# ESKADRİLYANIN DÖYÜŞ HAZIRLIĞINA GÖRƏ FƏRQLƏNƏN MANQASI

***Fəxrlə qeyd edə bilərik ki, bu gün qoşunların 17077 saylı hərbi hissəsi peşəkar hərbi qulluqçu və mütəxəssislərlə komplektləşdirilib.***



Şəxsi heyətin, maddi vəsaitlərin əməliyyat və ya tədbirlərin keçirildiyi rayonlara daşınması, patrul-nəzarət, axtarış-xilasetmə uçuşlarının həyata keçirilməsi, həmçinin paraşüt-desant və xüsusi həmlə qrupları ilə birlikdə fəaliyyətlərə daim hazır olması Daxili Qoşunların 17077 saylı hərbi hissəsinin qarşısında duran əsas vəzifələrdir.

Eskadrilyanın hərbi qulluqçuları peşə hazırlığının daha da artırılması istiqamətində hər zaman öz üzərilərində çalışır, istifadədə olan helikopterlərin daima uçuşa hazır və saz vəziyyətdə saxlanılmasını təmin edir.

Qəzetimizin bu sayında Eskadrilyada xidməti vəzifələrini lazımi səviyyədə nizamlayan helikopter manqasının fəaliyyəti haqqında məlumat verməK qərarına gəldik. Manqa komandirinin vəzifəsini müvəqqəti icra edən mayor Sahib Məmmədov diqqətə çatdırdı ki, tabeliyində olan hərbi qulluqçular döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması məqsədilə vəzifələrinin icrasına son dərəcə məsuliyyətlə yanaşırlar. Şəxsi heyətlə helikopter kabinəsində planlaşdırılmış uçuş tapşırığına müvafiq olaraq məşğələlər təşkil olunub keçirilir. Manqa komandiri ekipajların uçuşlara hazırlığına fərdi nəzarəti həyata keçirir. Eyni zamanda manqanın uçuş hazırlığına, uçuşların təhlükəsizliyinə, hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, uçuş heyəti tərəfindən ixtisas fənlərinin mənimsənilməsinə diqqət yetirir. Uçuşlara ilkin hazırlığın keçirilməsi planını tərtib etmək, planlaşdırılmış uçuş tapşırıqlarının yerinə yetirilməsinə hazırlaşmaq üçün əyani və tədris vasitələrinin siyahısını hazırlamaq da onun əsas vəzifələrinə aiddir.



Bu sahənin spesifikliyini, kiçik bir səhvdən hər an təhlükə ilə üzləşməyin qaçılmaz olduğunu xüsusi vurğulayan mayor S.Məmmədov uçuşqabağı hazırlıq prosesində lazımi hesablamalar aparmaq, helikopterlərin kabinələrində ekipajlarla konkret meteoroloji və ornitoloji şəraiti nəzərə alaraq uçuş tapşırıqlarının xüsusiyyətlərini əks etdirən məşqlər keçirməyin vacibliyini bildirdi.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı tərəfindən təsdiq edilmiş illik uçuş planına uyğun olaraq, eskadrilyanın uçuş heyətilə təlim-məşq uçuşları təşkil olunur. Hər bir uçuş növbəsinin sonunda manqanın şəxsi heyətilə keçirilmiş uçuşların "Azərbaycan Respublikası Hava Fəzasında Əsas Uçuş Qaydaları" təlimatına əsasən, müvafiq təhlillər aparılır.



Həmçinin, günün nizamına uyğun olaraq, planlı şəkildə hərbi hissədə helikopterlərdə reqlament işləri aparılır, onlara texniki qulluq göstərilir. Daxili İşlər Nazirliyi rəhbərliyinin və Daxili Qoşunlar Komandanlığının xüsusi diqqət və qayğısı sayəsində pilotlarımızın ixtisaslarının artırılması, peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi məqsədilə Milli Aviasiya Akademiyasının personal hazırlıq mərkəzində kurslara və praktiki təlimlərə cəlb olunması da uğurla həyata keçirilir. İlkin olaraq 7 pilot və 1 borttexnik hazırlanaraq sıralarımıza qəbul olunub. Bu işdə Milli Aviasiya Akademiyasının peşəkar müəllim heyətinin - Mirməmməd Ağayev, Mehman Ağayev, Feliks Cavadov, Rasim Quluzadə və Çingiz Məlikzadənin adlarını qeyd etmək olar. Bu kurslara həvəslə qatılan və müvəffəqiyyətlə bitirən, ixtisasları üzrə fəallıqları ilə fərqlənən pilot hərbi qulluqçularımızdan baş leytenant Şəhriyar Bayramov, kapitan Emin Manafov, Emil Manafov və Ceyhun Qurbanzadənin adlarını çəkə bilərik.

Hazırda hərbi hissə qarşıya qoyulmuş tapşırıqların icrasına tam hazırdır. Şəxsi heyətdə böyük ruh yüksəkliyi və özünəinam hissi formalaşıb. Bir sözlə, Daxili Qoşunların sıralarında xidmət etməkdən qürur hissi duyan və əzmkarlıq göstərən manqanın şəxsi heyətinin fəaliyyəti təqdirəlayiqdir.

**leytenant N.Ağayeva**

# NÜMUNƏVİ, TƏCRÜBƏLİ HƏRBİ QULLUQÇUMUZ

***Daxili Qoşunların Dayaq rabitə qovşağında intizamı, bacarığı, hərbi xidmətə münasibəti ilə seçilən hərbi qulluqçulardan biri baş çavuş Dəyanət Əliyevdir. O, 1981-ci il yanvarın 21-də Lerik rayonunun Billəban kəndində dünyaya gəlib. Orta təhsilini doğma kənd məktəbində alan Dəyanət 1998-ci ildə təhsilini başa vurub. Müddətli həqiqi hərbi xidmətini 1999-2000-ci illərdə Daxili Qoşunların 12318 saylı hərbi hissəsində keçib. Elə həmin dönəmlərdə hərbçi peşəsinə olan dərin rəğbəti Daxili Qoşunların sıralarında xidmətini davam etdirməsinə səbəb olub.***

2001-ci ildən müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Hazırda Dayaq rabitə qovşağının baş texniki vəzifəsində xidmətini davam etdirir. Xidmət rəisi mayor Abbasəli Mehdiyev baş çavuş D.Əliyevin nizam-intizamlı, xidməti vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçu olduğunu nəzərə çatdırdı. Qarşısına qoyulan tapşırıqların icrasına diqqətlə yanaşan hərbçimiz peşə vərdişlərini təkmilləşdirir, öz xidməti təcrübəsini kollektivin yeni personalı ilə bölüşür. Şəxsi heyətə örnək kimi təqdim edilən baş çavuş D.Əliyev döyüş hazırlığının yüksəldilməsi üçün əlindən gələni əsirgəmir. İşinə ciddi yanaşması ilə yanaşı, insani keyfiyyətlərə malik etibarlı dostdur. Belə ki, xidmətə yeni qəbul olmuş hərbi qulluqçuların təlimatlandırılması, hərbi rejimə uyğunlaşmasında da onun əməyi var. Funksional vəzifələrini dərindən bilir, öz üzərində daim çalışır.



Onun ən böyük arzusu işğal olunmuş torpaqlarımızın düşmən tapdağından azad olunmasıdır. Bu günü səbirsizliklə gözləyən hərbi qulluqçumuz torpaqlarımızın bütövlüyü uğrunda son damla qanınadək vuruşmağa hazır olduğunu vurğuladı.

**leytenant N.Ağayeva**

## ŞƏHİDLƏRİMİZ

# DÖYÜŞÇÜ ÖZ LƏYAQƏTİ İLƏ YENİLMƏZ OLUR

***Azərbaycanın elə bir bölgəsi yoxdur ki, orada şəhid ailələri yaşamasın, şəhid məzarları olmasın. Erməni işğalçılarına qarşı döyüşlərdə silaha sarılaraq düşmənlə vuruşan və vətənin müdafiəsi naminə həyatını qurban verən igid oğulların dəfn edildiyi, yurdumuzun hər yerində mövcud olan məzarları bizə xalq olaraq müharibə yaralarımızı, torpağımızın müqəddəsliyini xatırladır. Həm say-seçmə oğullarımızı, həm də torpaqlarımızı itirməyimiz nə qədər ağrı-acılı olsa da, bu ölüm-qalım sınağı bizi ruhdan sala, yağıdan qisasımızı alacağımıza inamımızı sarsıda bilməz. Bu qədər şəhid verən xalqın mənəvi gücü yenilməzdir. Şəhidlik imtahanı bu həyatda ən ləyaqətli və şərəfli imtahandır. Hansı ki, onu yaşamaq xalqımızın da fədakar oğullarının taleyinə yazılıb.***



ŞƏHİD AĞASƏF İSRAFİLOV

Kiçik çavuş İsrafilov Ağasəf İsrafil oğlu Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhid hərbi qulluqçularından biridir. Onun çətin sınaqlardan keçən döyüş yolu Vətənə, doğma xalqına ehtiram və sədaqətin nümunəsidir.

Ağasəf 1974-cü il yanvar ayının 6-da Şəki rayonunun Birinci Biləcik kəndində çoxuşaqlı ailədə dünyaya göz açıb. Valideynləri ona nadir ad veriblər, onu və qardaş-bacılarını ailəyə, el-obaya, halal zəhmətə bağlılıq, xeyirxahlıq ruhunda tərbiyə ediblər. O, böyüyüb boya-başa çatdığı kənddəki orta məktəbi bitirib. Orta məktəbdə müəllimlərinin hörmətini saxlayıb, məktəb yoldaşlarına mehriban rəftarı ilə yadda qalıb.

A.İsrafilovun məktəb illərinin sonu və hərbi xidmətə çağırıldığı ərəfədə respublikamızda vəziyyət çox gərgin idi. Ermənistanın respublikamıza ərazi iddialarının başlaması, Dağlıq Qarabağda erməni separatizminin yaratdığı təhlükələr, digər tərəfdən, Azərbaycanda milli dirçəliş hərəkatının geniş vüsət alması, xalqımızın milli müstəqilliyinə qovuşması yönündə hadisələr o vaxt gənclər arasında da mübariz ruh formalaşdırmışdı. Bütün bu baş verənlərə Ağasəf də laqeyd qalmır, xalqımızın haqq işi yolunda ön sıralarda olmağı özünə şərəf bilirdi.

1992-ci ilin yanvar ayında Ağasəfin 18 yaşı tamam olmuşdu. Həmin dövrdə Azərbaycan artıq müstəqillik yoluna qədəm qoymuşdu. Ermənistan-Azərbaycan sərhəddində və Dağlıq Qarabağda isə döyüşlər gedirdi. 1992-ci ilin fevral ayının 26-da ermənilərin Xocalıda soydaşlarımıza qarşı törətdiyi soyqırım bütün Azərbaycanı silkələdi, saysız-hesabsız könüllü ordu sıralarına yazıldı. Ağasəf də döyüşən ordunun sıralarına qatılmaq üçün müraciət etmişdi.

1992-ci ilin mart ayının 12-dən etibarən Daxili Qoşunlar da erməni işğalçılarına qarşı döyüşlərə başlamışdı. Həmin ilin iyun ayında Daxili Qoşunların sıralarına həqiqi hərbi xidmətə çağırılmasını Ağasəf ruh yüksəkliyi ilə qarşıladı. O, 3270 saylı hərbi hissədə (sonradan 25035, hazırda 25031 saylı hərbi hissə - Y.A.) həqiqi hərbi xidmətə başlayıb, burada hərbi andı qəbul edib. 1992-ci ilin avqust ayının 19-da 3270 saylı hərbi hissədə ona "kiçik çavuş" hərbi rütbəsi verilib. Sonra həqiqi hərbi xidmətini 3280 saylı (hazırda 12318 saylı hərbi hissə - Y.A.) və 5479 saylı (hazırda 16073 saylı hərbi hissə - Y.A.) hərbi hissələrdə davam etdirib. Həmin hərbi hissələrdə döyüş qabiliyyətli, bacarıqlı hərbi qulluqçu kimi formalaşıb. Qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirib.

1993-cü ilin yanvar ayında isə Ağasəf 5479 saylı hərbi hissədən 3650 saylı hərbi hissəyə (həmin vaxtdan 67987 saylı hərbi hissə - Y.A.) – ön cəbhəyə göndərilib. Beləliklə, ona düşmənlə vuruşaraq, döyüşçü məharətini göstərmək imkanı verilib. 67987 saylı hərbi hissə hərb salnaməmizə qəhrəmanlıq nümunələri yazmış bir hərbi hissədir. Ağasəf hərbi hissənin tərkibində Ağdam, Ağdərə və Füzuli rayonları ərazisində şərəfli döyüş yolu keçib. O, ön cəbhənin bu istiqamətlərində torpaqlarımızın müdafiəsində mətin dayanıb, düşmənin mövqelərinin ələ keçirilməsi, atəş nöqtələrinin susdurulması və canlı qüvvəsinin tələfata uğradılmasında cəsurluq nümunələri göstərib.



ŞƏHİDİN ŞƏKİ RAYONU BİRİNCİ BİLƏCİK KƏNDİNDƏKİ MƏZARI

Ağasəfin həmkəndlisi, həm məktəb, həm də döyüşçü yoldaşı olmuş ehtiyatda olan baş gizir, veteran Rəşad Məmmədov onu ləyaqətli, qorxmaz, qeyrətli bir gənc kimi xarakterizə etdi. Dostunun ön cəbhədə çətin sınaqlardan keçdiyini nəzərə çatdırdı, döyüş meydanında düşmənə ağır zərbələr vurduğunu bildirdi.

Ağasəfin son döyüşü Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığındakı yüksəklikdə olub. 1993-cü il dekabrın 22-də həmin yüksəklik uğrunda döyüş zamanı son nəfəsindək şücaətlə vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Həmişə qələbə əzmilə döyüşən Ağasəf göstərilən ərazidə şiddətli döyüş zamanı ağır qəlpə yarasından həlak olub.

1994-cü ilin yanvar ayının əvvəllərində Füzuli rayonunun Böyük Bəhmənli kəndi və həmin yüksəklik işğaldan azad olunub. Uğurlu Horadiz əməliyyatı nəticəsində həmin istiqamətdə bir çox yaşayış məntəqəsi düşməndən geri alınıb. O vaxtdan həmin yurd yerlərimizdə üçrəngli bayrağımız dalğalanır, minlərlə soydaşımız öz kəndlərinə qayıdıb, ata ocağına qovuşub. Bütün bunlar Ağasəf və onun kimi mərd oğulların qanı və canı bahasına mümkün olub.

Ağasəf doğma kəndində dəfn edilib. Dövlətimiz tərəfindən şəhidin ailəsinə müavinət təyin olunub.

Onu da qeyd edim ki, A.İsrafilov haqqında arxiv sənədlərində onun hərbi rütbəsi ilə bağlı müəyyən ziddiyyətlər nəzərə çarpır. Belə ki, ona "kiçik çavuş" hərbi rütbəsinin verilməsinə baxmayaraq, sonrakı qeydlərdə sıravi (əsgər) olaraq göstərilib. Mövcud sənədlərə istinad etməklə bunun nədən qaynaqlandığını cavablandırmaq mümkün deyil. Ümumiyyətlə, müharibə dövrünə aid sənədlərdə belə ziddiyyətləri bir neçə dəfə aşkar etmişəm. Belə hallar o mürəkkəb dövrün ahəngsizliyinin doğurduğu reallıqlardan biridir. Həmin dövrdən uzun zaman keçdikcə, bu faktların araşdırılması da çətinləşir.

Şəhidlik məqamına ucalmaq hər oğula nəsib olmur. Bu mübarək zirvəyə gedən yol seçilmişlərin yoludur. Vətənimiz var olduqca, şəhidlərin də xatirəsi yaşayacaq və anılacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 13.07.2018 11:21 Page 1



NÜMUNƏVİ XİDMƏT

# HƏRBİ XİDMƏT SINAQ MƏKTƏBİDİR

***Redaksiyadan:** Hərbi hissələrimizdəki ştatdankənar müxbir postlarından göndərilən məqalələr arasında müxtəlif bölmələrdə nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçuların nailiyyətlərinin işıqlandırılması üstünlük təşkil edir. Belə yanaşma başadüşüləndir. Çünki belə hərbi qulluqçular hər bir hərbi kollektiv barədə müsbət rəy yaradır. Digər tərəfdən, bu, ştatdankənar müxbir postlarının hərbi hissələrin həyatında mühüm yer tutan bölmələrin fəaliyyətinə xüsusi diqqət yetirmələrinin təzahürüdür. Bu sayımızda 17074 saylı hərbi hissənin ştatdankənar müxbir postunun hazırladığı yazıların dərcini davam etdiririk.*



17074 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət keçən **baş çavuş Ruslan Sadıqov** 1987-ci il dekabr ayının 31-də Şəki rayonunun Təpəcənnət kəndində anadan olub. 2006-cı ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müddətli həqiqi hərbi xidmətini Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. 2008-ci ilin yanvar ayında isə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Həmin ildən etibarən 17074 saylı hərbi hissədə xüsusi təyinatlıların sırasında xidmət edir. Hazırda xüsusi təyinatlı dəstədə xüsusi həmlə qrupunun yarımqrup komandiri olan baş çavuş R.Sadıqov vətənpərvərlik əqidəsinə sadiqdir. Dövlətçiliyimiz naminə qarşıya qoyula biləcək istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Funksional vəzifələrini vicdanla yerinə yetirir. Döyüş hazırlığının möhkəmləndirilməsi yönündə əzmkarlıq göstərir. Onun xidmət etdiyi bölmənin xüsusiyyətləri hərbi qulluqçuda çeviklik, qətiyyət, iradə, dəqiqlik kimi keyfiyyətlərin olmasını tələb edir. Baş çavuş R.Sadıqov bu keyfiyyətlərin daşıyıcısıdır. Ruslan ona təhkim olunan silah və xüsusi vasitələrdən məharətlə istifadə etməyi bacarır. Döyüş təlimində müsbət göstəricilər nümayiş etdirir. Özünə qarşı tələbkar hərbi qulluqçudur. Xüsusi təyinatlı məsləyini layiqincə doğruldur.

17074 saylı hərbi hissənin komendant bölüyündə xidmət edən **əsgər Ənvər Abdullayev** də nümunəvi cəhətdən fərqlənir. O, 1999-cu il martın 24-də Sabirabad rayonunun Qəzli kəndində anadan olub. 2017-ci ilin iyul ayında Daxili Qoşunların sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların hərbi qulluqçusu olmasından qürur duyur. Xidmət etdiyi hərbi hissənin timsalında Daxili Qoşunların şəxsi heyətinin xalqımızın əmin-amanlığı keşiyində dayandığını, ölkədaxili sabitliyin qorunmasında fədakarlıq göstərdiyini deyən Ənvər bu əqidə ilə layiqli əsgər olmağa çalışır. O, bölükdə öz nizam-intizamı, döyüş təlimində əzmkarlığı, döyüş xidmətinə cəlb olunarkən ayıq-sayıqlığı ilə seçilir. Ona təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilir, silaha düzgün qulluq edir, sərrast atıcıdır. Xidmət etdiyi bölüyün nüfuzunu uca tutur, əsgər yoldaşları arasında hörməti var, komandirlərin etimadını doğruldur. Ənvər hesab edir ki, hərbi xidmət hər bir gəncin mütləq keçməli olduğu sınaq məktəbidir. Belə ki, hərbi xidmət mətin və cəsarətli olmağı öyrədir, dözümlülük, öz gücünə və iradənə inam aşılayır. Ənvər onu da vurğulayır ki, layiqli xidmət etməklə hər bir əsgər valideynlərinə başucalığı gətirir, öz el-obasını şərəfləndirir.



Bu hərbi qulluqçulara hərbi xidmətdə həmişə layiqlilər sırasında olmağı arzulayırıq.

**17074 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

idman

# HƏRBİ QULLUQÇUMUZ DÜNYA ÇEMPİONATINDA DAHA BİR UĞURA İMZA ATDI

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında hərbi qulluqçularımızın fiziki hazırlığı daim diqqət mərkəzində saxlanılan əsas amillərdəndir. Daxili Qoşunlar Komandanlığının döyüş təlimi prosesində şəxsi heyətin idman və fiziki hazırlığına xüsusi diqqət yetirməsi də məhz bunun bariz nümunəsidir. Rəhbərlik tərəfindən peşəkar idmançılarımız üçün yaradılmış hərtərəfli şəraitin nəticəsidir ki, Daxili Qoşunların İdman Komandasının hərbi qulluqçuları dünya turnirlərindəki uğurlu çıxışları ilə hər birimizi sevindirir. Bu il ərzində keçirilmiş müxtəlif idman yarışlarında ölkəmizi layiqincə təmsil edən hərbçilərimizin qazandığı nailiyyətlər həqiqətən də təqdirəlayiqdir.

Yaxın günlərdə Daxili Qoşunların İdman Komandasının məşqçi-müəllimi baş leytenant İlqar Nəcəflinin idman uğuru ilə bağlı aldığımız xəbər, sözün əsl mənasında, ürəyimizcə oldu. O, iyunun 26-dan iyulun 4-nə kimi Amerika Birləşmiş Ştatlarının Orlando şəhərində əlbəyaxa döyüşün sanda növü üzrə keçirilən Dünya çempionatında iştirak edib. 85 kq. çəki dərəcəsində tatami üzərinə çıxan cəngavərimiz dominikanlı və amerikalı rəqiblərini təmiz qələbə ilə üstələyə bilsə də, finalda kifayət qədər güclü italiyalı idmançı ilə mübarizədən məğlub ayrılıb. Beləliklə, 29 ölkənin qatıldığı yarışda güclü rəqiblərlə üz-üzə gələn idmançımız rəsmi kürsünün üçüncüsü olub və çempionatın bürünc medalını qazanıb.

Qeyd edim ki, hələ 11 yaşında olarkən idmanın karate-do növü ilə məşğul olmağa başlayan İlqar ilk uğurunu 1996-cı ildə Bakıda keçirilmiş turnirdə qazanıb. 2006-cı ildə əlbəyaxa döyüş üzrə Azərbaycan çempionu, 2008-ci ildə Heydər Əliyev adına turnirin qalibi, 2009-cu ildə Almaniyada keçirilən əlbəyaxa döyüş üzrə Dünya çempionatının qalibi olub. 2011-ci ildə Gürcüstan Respublikasında əlbəyaxa döyüş üzrə Avro-Asiya yarışının qalibi, 2012-ci ildə Ukraynada keçirilən əlbəyaxa döyüş üzrə Dünya kubokunun sahibi, 2016-cı ildə isə Türkiyədə keçirilən Dünya çempionatının bürünc mükafatçısı olub.



Ümid edirik ki, idmançı hərbi qulluqçumuzun uğurları bununla bitməyəcək, onu beynəlxalq kürsülərin ən uca pillələrində görəcəyik.

Fəxrlə deyə bilərik ki, Dövlət bayrağımızı hər zaman ucaldan, Daxili Qoşunların idman şərəfini ləyaqətlə qoruyan güclü idmançılarımızla qürur duyuruq!

Növbəti qələbələr ümidilə...

**leytenant N.Ağayeva**

HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR -



## Polşa sualtı gəmi əleyhinə helikopterlərlə təchiz olunacaq

"Polşanın helikopterlər alma proqramı dəyişir. Varşava üçün hazırkı prioritet sualtı gəmi əleyhinə helikopterlərin alınmasıdır".

Ordu.az xəbər verir ki, bu fikirləri Polşanın Müdafiə naziri Mariusz Blaszçak səsləndirib.

O, bildirib ki, sələfləri Rusiya ilə yaxşı əlaqələr olması üzərində hesablar aparırdı, buna görə də şərqdən heç bir təhdid gözləmirdilər. Lakin indi Polşanın şərq sərhədində qeyri-sabitlik hökm sürür.

Blaszçak bəyan edib ki, əvvəllər Polşa qoşunları sadəcə sülhməramlı missiyalarda iştiraka hazırlaşırdı, lakin artıq hücum helikopterlərinin alınması planlaşdırılır.

## "Huntington" ABŞ donanmasına yeni sualtı gəmini çatdırıb



Ordu.az xəbər verir ki, "USS Indiana" adlı gəmi 16-cı "Virciniya" sinifli sualtı gəmidir.

"Huntington Ingalls" bu gəmiləri "General Dynamics"lə əməkdaşlıq çərçivəsində istehsal edilir və artıq bu vaxta qədər ABŞ donanmasına 8 belə gəmini təhvil verib.

Məlumata görə, "Indiana"nın konstruksiyasına 2012-ci ilin sentyabrında başlanılıb. O, bu ayın əvvəllərində dəniz sınaqlarını uğurla tamamladı. İlin sonlarına qədər donanmanın istifadəsinə verilməsi gözlənilir.

*(əvvəli ötən sayımızda)*

Bel nahiyəsində, oynaqlarda, əzələlərdə ağrı olduqda, dərman içilməsi heç də vacib deyil. Bu zaman mədə, qara ciyər və böyrəkləri dərmanların mənfi təsirindən qorumaq və xarici ağrıkəsici vasitələrdən – məlhəm və gellərdən istifadə etmək lazımdır.

Bir çoxları, xüsusən də qadınlar başağrısı olan kimi, müxtəlif dərmanlar qəbul edirlər. Ancaq ağrı çox da güclü olmazsa, xüsusən də o, stres, yorğunluq, fiziki və ya sinir gərginliyi nəticəsində yaranmış olarsa, dərman qəbul etmədən də keçinmək olar. Belə hallarda uzanmaq, bədən və üz əzələlərinə tam sakitlik vermək, problemdən yayınmaq, boyun nahiyəsini yüngül masaj etmək, adətən, kifayət edir.

Daha bir vacib məsləhət: heç bir halda ağrıkəsici dərmanlar, antibiotiklər və digər dərman preparatlarını acqarına qəbul etməyin (əlbəttə ki, qəbul qaydasında bunun əksi qeyd edilməyibsə)! Ağrı nə qədər güclü olsa da, dərman qəbuluna qədər hər hansı bir qida qəbul etmək lazımdır.

**6. Stres vəziyyətlərindən qorunmaq.**

Fizioloqlar təsdiq edirlər ki, stres mədə şirəsi ifrazının artmasına səbəb olur. Beləliklə, əgər stres vəziyyətləri tez-tez təkrarlanırsa, ifraz olunan mədə şirəsi mədənin selikli qişasını da zədələməyə başlayacaq. Bir çox hallarda bu, kəskin qastritlərin, mədədə eroziyanın və xoranın əmələ gəlməsinə səbəb olur. Stres vəziyyətinə düşənlərin bir çoxu gərginliyə düşdükləri zaman özlərində iştahanın artması hissiyyatının olduğunu qeyd edirlər. Bu zaman orqanizm sanki insana "öz mədəni qoru!", deyə müraciət edir. Beləliklə, gərgin vəziyyətlərə düşdüyünüz halda qida qəbulunu aktivləşdirmək lazımdır. Əks halda bir neçə gün ərzində ciddi mədə xəstəliyinə düçar ola bilərsiniz. Qısa şəkildə, bunu bir qayda olaraq "stres keçirtdin – yemək ye!" sözləri ilə ifadə etmək olar. Ancaq bu zaman qəbul edilən qidanın həcminə mütləq diqqət yetirmək lazımdır. Həddindən artıq yeməyin! Əks halda tez-tez stres keçirməyiniz sizə çəkinizin artması kimi əlavə bir problem də yarada bilər.

**7. İnfeksiyaların vaxtlı-vaxtında müalicəsi.**

Karies, badamcıqların iltihabı (tonzillit), burunun əlavə boşluqlarında olan xroniki iltihabi proseslər (məsələn haymorit), mədəaltı vəzin, öd kisəsinin, qara ciyərin, nazik və yoğun bağırsaqların xroniki iltihabları və s. bu kimi hallar da mədənin zədələnməsinə səbəb olur. Bu xəstəliklərin nəticəsində müxtəlif orqan və toxumalarda mikrob (infeksiya) ocaqları yaranır. Bu mikroblar isə bütün orqanizm boyu yayılaraq müxtəlif orqanların, o cümlədən mədənin də iltihabına səbəb olurlar.

Bundan əlavə, qurd invaziyalarını da müalicə etmək və hər vasitə ilə onların profilaktikasını aparmaq lazımdır. Çünki qurdlar da mədə xəstəliklərinin yaranmasına səbəb ola bilər.

metodiki vəsait

# HƏZM SİSTEMİ XƏSTƏLİKLƏRİNİN PROFİLAKTİKASI

metodiki vəsait

# YENİYETMƏLƏRDƏ NARKOMANİYA EHTİMALININ ERKƏN ƏLAMƏTLƏRİ, NARKOMANİYA MÜALİCƏSİNİN ÜMUMİ PRİNSİPLƏRİ

Yeniyetmələr arasında keçirilmiş tədqiqatlar göstərir ki, narkomaniyanın inkişafetmə ehtimalı təkcə xarici (davranış) deyil, daxili (motivasiya, səbəb) təzahürlərə də əsaslanır.

Təyin edilib ki, narkotik vasitələrə meyllik bir sıra ardıcıl mərhələlər keçərək, əvvəlcə ilkin əlamətlərdən qeyri-patoloji, sonradan klinik formaya çevrilir.

Psixoaktiv maddələrə meylliyin dərəcəsinə görə müayinədən keçmiş yeniyetmələr şərti qruplara bölünüb:
1) narkomaniya ehtimalının olmaması;
2) narkomaniya ehtimalının olması;
3) xəstəliyin əlamətlərinin formalaşması.

Birinci qrupdan olan yeniyetmələrə psixoaktiv maddələrə qarşı ya mənfi, ya da qeyri-müəyyən, formalaşmamış münasibət xasdır.

İkinci qrupdan olan yeniyetmələrdə ardıcıl olaraq narkotik yönümün koqnitiv, emosional və davranış komponentləri inkişaf edir, vəziyyətdən asılı olaraq, müxtəlif dərəcəli qeyri-patoloji həvəs yaranır.

Narkomaniyanın təzahürləri formalaşan yeniyetmələrdə psixoaktiv maddələrə qarşı xəstəliyin ibtidai əlamətləri ilə keçən aşkar qeyri-patoloji meyl, ya da ilkin narkomaniya mərhələsinin daha aydın simptomları ilə müşayiət olunan birincili patoloji meyl qeyd olunur.

Məlum olub ki, narkotiklərə qarşı meylin formalaşmasına, əsasən, bu kimi mikrososial amillər təsir edir: ailədaxili mikromühit, narkotiklərin istifadəsinə ailədəki münasibət, ailədaxili emosional bağların xüsusiyyətləri, həmyaşıdların referent qruplarda iştirakı.

Daha az əhəmiyyətli amillərə aiddir: ailənin tipi (tam və ya natamam), maddi təminatı, valideynlərin təhsil səviyyəsi, məktəb mühitinin təsiri. Astenik, psixostenik, emosional-labil, sensitiv, şizoid xassəli yeniyetmələrdə narkotiklərə qarşı ilkin patoloji meylin təşəkkülü əksər hallarda digər narkomaniya simptomlarından əvvəl baş verir; narkotiklərə meyl daxili səbəblərin təsiri altında aktuallaşır. Hipertim, isteroid, qeyri-sabit, konform xassəli yeniyetmələrin əksəriyyətində əks-dinamika müşahidə olunur. Epileptoid xassəli şəxslərdə həm xarici, həm də daxili təsir altında narkotiklərə meylin hər iki növü aşkar edilir.

Yeniyetmələrin qruplara bölünməsi lazımi müalicə tədbirlərinin həcmi və xarakterini müəyyən edir.

Narkomaniya ehtimalı olmadığı şərti qrupa aid yeniyetmələr adi profilaktik tədbirlərə ehtiyac duyur.

Xəstəlik ehtimalı olduğu şərti qrupa daxil olan yeniyetmələrlə yaxın mikroətraf da cəlb olunmaqla qrup şəklində və fərdi psixokorreksion təsir əsasında qurulmuş iş aparılmaldır.

Narkomaniyanın əlamətləri formalaşmış yeniyetmələrə psixoterapevtik təsir göstərilməli, bəzi hallarda isə medikamentoz proseduralar aparılmalıdır. Yeniyetmələrin valideynləri və pedaqoqlar üçün də differensial profilaktik tövsiyələr işlənib hazırlanıb.

### Narkomaniya müalicəsinin ümumi prinsipləri

Narkomaniya xəstəliyinin müalicəsinin tam kursu dörd mərhələdən ibarətdir. Bunlardan birinci iki mərhələ spesifik tibbi xarakter daşıyır, sonrakı iki mərhələdə isə daha çox tərbiyəvi tədbirlər üstünlük təşkil edir.

**Birinci mərhələ** - qəbul olunmuş narkotik maddənin parçalanması nəticəsində yaranan zərərli maddələrinin orqanizmdən xaric olunması (detoksikasiya). Detoksikasiya aşağıdakı tədbirlərdən ibarətdir:

- orqanizm tərəfindən tam mənimsənilməmiş zərərli maddələrin təmizlənilməsi;
- həyati vacib funksiyaların bərpa edilməsi (qan dövranı, tənəffüs, su-elektrolit balansı və s.);
- xəstənin istifadə etdiyi narkotik maddələrinin növündən asılı olaraq orqanizmin toxumaları tərəfindən mənimsənilmiş zərərli maddələrin təmizlənilməsi.

Detoksikasiya prosesində xəstənin narkotik maddə qəbul etməməsi prinsipialdır. Hal-hazırda hamı tərəfindən qəbul olunmuşdur ki, narkotik maddələrin mərhələli qadağası yalnız xəstəliyin ağır hallarında məqsədəuyğundur. Belə ki, abstinent sindromunun inkişafı prosesində epileptik tutmalar kimi həyat üçün təhlükəli hallar yarana bilər. Digər hallarda isə narkotik maddələri, onlara uyğun dərman preparatları ilə əvəz edərək, narkotik maddələrinin qəbulunu birdən dayandırmaq məqsədəuyğundur.

Uzun müddət, hətta bütün həyatı boyu davam edən psixi asılılıqdan fərqli olaraq, fiziki asılılıq bir və ya iki həftə ərzində keçir.

Detoksikasiya prosesi dozaaşırımından sonra və ya narkotik maddələrin qəbulunun dayandırılmasından sonra yaranan abstinent sindromu zamanı mütləqdir.

Bundan başqa, müalicənin birinci mərhələsində xəstənin fiziki qüvvəsinin bərpası üzrə tədbirlər həyata keçirilir.

Müalicənin bu fazasında orqanizmin susuzluğunun qarşısının alınması (dehidratasiya) və abstinensiya sindromunun zəiflədilməsi məqsədilə həkimin istifadə etdiyi farmakoloji vasitələr xüsusi rol oynayır.

**İkinci mərhələ** - zəhərlənmənin nəticəsində yaranan daxili orqanların funksiyalarının pozulması, sinir sisteminin pataloji dəyişiklikləri və digər pozuntuların aradan qaldırılması. Bunlar narkotiklərin zəhərləyici təsirinin və yaxud narkomanların sağlamlıq üçün əlverişsiz olan həyat tərzinin nəticələri ola bilir.

Bu mərhələdə xəstənin müalicəsində tətbiq olunan tibbi tədbirlər xəstənin orqanizmində baş vermiş dəyişikliklərin normallaşdırılmasına və orqanizmdə ümumi möhkəmləndirilməsinə yönəldilir.

**Üçüncü mərhələ** - vərdişlərin aradan qaldırılması üzrə müvafiq tədbirlər. Müalicənin bu mərhələsində tərbiyəvi tədbirlər üstünlük təşkil edir. Məqsəd - xəstədə narkotik maddələrdən asılılığa mənfi münasibətin yaradılmasıdır. Bu məqsəd tərbiyəvi xarakterli tədbirlər vasitəsilə narkotik maddələrin qəbulunun dayandırılmasına nail olunmasını, xəstənin maraqlarının istiqamətləndirilməsini, onun emosional sferasının, xəstənin özü və ətrafdakıları üçün xeyirli olan dərslərə yönəldilməsini özündə cəmləşdirir. Əlbəttə ki, bunları dərmanlar vasitəsilə həyata keçirmək qeyri-mümkün olduğu üçün həkimin rolu azalaraq psixoloq, psixoterapevt və pedoqoq-resosioloqun tədbirlərinə üstünlük verilir.

**Dördüncü mərhələ** - narkomanın resosializasiyası. Yenidən tərbiyə tədbirlərini pedaqogikanın resosializasiya sahəsinə aid edirlər. Bu tədbirlərin məqsədi müalicə-tərbiyəvi şəraitdə insanın normal ictimai həyata qaytarılmasıdır.

Göründüyü kimi, terapevtik kursun təqdim olunmuş mərhələləri vahidlik təşkil edir və onları bir-birindən ayırmaq olmaz. Tibbi tədbirlər tərbiyəvi təsirlərlə birgə tətbiq edilməlidir.

Narkomaniyanın müalicəsi prosesində ən qısa mərhələ-zərərli maddələrin orqanizmdən təmizlənməsi və xəstənin abstinensiya sindromundan çıxması mərhələsidir. Əsasən bundan sonra uzunmüddətli və çətin, narkomanın psixi asılılıqdan xilas edilməsi dövrü başlanır.

Narkomaniyaya tutulmuş xəstələrin müalicəsində bir sıra səbəblərə görə çətinliklər yaranır. Əsas səbəblərdən biri narkomanların çoxunun müalicəyə qərəzli yanaşmasıdır. Bu da onunla izah edilir ki, ya onlar asılılıqdan xilas olmaq istəmirlər, ya da həkimlər tərəfindən tətbiq olunan metodlara etibar etmirlər.

Digər səbəb isə, "fırlanan qapı" effektinin yaranması zamanı mühitin təsiri nəticəsində abstinensiyanın pozulmasıdır. Bunu narkomanların özləri təsdiq edirlər.

Narkomaniya xəstəliyinin müalicəsinin tam kursu dörd mərhələdən ibarətdir. Bunlardan birinci iki mərhələ spesifik tibbi xarakter daşıyır, sonrakı iki mərhələdə isə daha çox tərbiyəvi tədbirlər üstünlük təşkil edir.

**Respublika Narkoloji Mərkəzi**

## Allah rəhmət eləsin

17077 saylı hərbi hissənin komandanlığı kapitan Ceyhun Qurbanzadəyə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000